Tarix və onun problemləri, №1-2 2009

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*

# K.A.NİKİTİNİNİN «NAXÇIVAN ŞƏHƏRİ VƏ NAXÇIVAN QƏZASI» MƏQALƏSİ NAXÇIVAN BÖLGƏSİ TARİXİNİN MƏNBƏYİ KİMİ

XIX əsrdə Naxçıvanda olmuş rus müəlliflərinin diyarın tarixinə həsr olunmuş əsərləri böyük maraq dogurur. Bu dövrün Naxçıvan tarixinin bir çox problemlərini əks etdirən yazılı mənbələrdən biri də K.A.Nikitinin «Naxçıvan şəhəri və Naxçıvan qəzası» adlı məqaləsidir. Bu məqalə 1882-ci ildə «Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar» adlanan məcmuənin ikinci buraxılışında nəşr edilmişdir. 126 il öncə Tiflisin Qafqaz Təhsil Dairəsi idarəsinin nəşriyyatında nəşr edidmiş bu məqalə Naxçıvan bölgəsinin tarixi üçün qiymətli bir mənbədir. Məqalə bir bölmədən, 33 səhifədən ibarətdir.

Məqalənin başlanğıcında Naxçıvan şəhərinin mövqeyi, tarixi abidələri, Nuh peyğəmbərlə, dunya tufanı, Nuhun gəmisi haqqındakı əfsanə və rəvayətlərdə Naxçıvanın özunəməxsus yer tutması təsvir olunmuşdur. Naxçıvan şəhərinin çox qədim tarixə malik olduğunu qeyd edən rus muəllifi K.Nikitin göstərir ki, Naxçıvan şəhəri müxtəlif şərq xalqlarının rəvayətlərində izləri qalan və Bibliyada yazılan bəşər tarixinin və onunla birlikdə böyük dünyəvi hadisələrin baş verdiyi bir mövqedə yerləşmişdir. 6-cı səhifədə göstərilir ki, 610-cu ildə Bizansda hakimiyyətə gələn imperator II İrakli Sasanilərə qarşı yürüşdə Sasani hökmdarı II Xosrova qarşı döyüşdə Naxçıvan qalasını dağıtmışdır. Bundan başqa Bizans imperatoru II Vasili (975-1025) Vaspurakan vilayəti ilə birlikdə Naxçıvanı da yandıraraq dağıtmışdır. XIII əsrdə monqollar şəhəri qarət etmiş, XIV yüzillikdə (1360-cı ildə) türk sultanı Muradın, həmin əsrdə Teymurun oğlu Miranşahın hakimiyyəti altına keçmişdir. Bütün bu hadisələr Naxçıvan şəhərinin tənəzzülünə səbəb olmuşdur. Şəhər əldən-ələ keçmiş, yerli əhali qarətə, köləliyə və ölümə məruz qalmışdı.

Mənbədə göstərilir ki, Makedoniyalı İsgəndər, Atilla başda olmaqla hunlar, Çingiz xan və Teymurləng öz qüdrətli orduları ilə bu şəhərdən keçib getmişlər. Naxçıvan şəhəri Nadir şahın dövründə də dağıdılmış və bu şəhərdə daşın üstündə daş qalmamışdır. Ancaq şəhər əvvəlki vəziyyətdə olmasa da bərpa edilmişdir. Rus müəllifi K.A.Nikitin yazırdı ki, hər dağıntıdan sonra bu şəhər əvvəlki görkəmi ilə olmasa da, əfsanəvi simurq quşu kimi yenidən dirçəlirdi. O, XVIII və XIX əsrlərə özünün əvvəlki zənginliyi və gözəlliyini tamamilə itirmiş bir şəhər kimi daxil olmuşdu. Özünün keçmiş gözəlliyini və ticarət şöhrətini itirmiş Naxçıvan şəhərində əhalinin sayı 150 mindən 6 minə enmişdir. 10 feval 1828-ci ilə qədər İran dövlətinin tabeliyində olmuş, ancaq Türkmənçay müqaviləsindən sonra Rusiyaya birləşdirilmişdir.

Müəllif şəhərin qədimliyini sübut edən abidələr içərisində Naxçıvan duz mədənlərindən tapılmış daş balta və külüngləri xüsusi qeyd edir. Bu daş balta və külünglər 1870-ci ildə Naxçıvan duz mədənlərindən tapılmışdır. Buradakı duz mədəninin nəzarətçisi olan Beyer həmin baltalardan 2 ədədini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Bu baltalardan duz çıxarılmasında istifadə olunmuşdur.

Tədqiqata cəlb olunan mənbədə Naxçıvan şəhərinin diqqəti cəlb edən aşağıdakı tarixi abidələrinin adları sadalanır:

1) Şəhərin cənub hissəsində köhnə qala abidəsinin dağılmış divarları-bu abidə iranlıların işğalından az sonra tikilmişdir. 2) Məscid-Naxçıvandan Ordubada gedən yolun üstündə yerləşir. Məscidin yanında, künc tərəfdə 2 minnarə vardır. 3) Məscidin ya-

nındakı qüllə–on bərabərüzlü prizma şəklindədir. Atabəyin birinci vəzirinin qabağında tikilmişdir. 4) Kiçik qüllə-şəhərdən Ordubada gedən yolun üstündə yerləşir. Onun yanındakı məscid müsəlmanlar tərəfindən müqəddəs bir yer kimi istifadə olunur. 5) 1322-ci ilə aid olan qızıl fars medalı üstündə ərəb dilində yazısı var. Bu medal Naxçıvan şəhərinin köhnə hissəsindən qazıntı zamanı tapılmışdır. 6) Dördbucaqlı qızıl val-rombformalı olub, qazıntı zamanı şəhərin həmin hissəsindən tapılmışdır. 7) Abbasabad qalası – Naxçıvanın cənub-şərq hissəsində, Araz cayının sahilindən 8 verst kənarda yerləşir. Qala İrəvanın tutulmasınndan sonra 1828-ci ildə Paskeviç tərəfindən dağıdılmışdır. 8) Qızılburun-Naxçıvan şəhərinin cənub-şərqində, Araz cayından 12 verst kənarda axırıncı vadinin cıxışında yerləşir. Yaxınlıqdakı dərənin yanında qırmızı dördbucaqlı daşdan tikilmiş qala vardır.

Məqalənin 10-cu səhifəsindən başlayaraq Naxçıvan şəhərinin sərhədləri, çayları, su mənbələri, iqlimi, bağçılıq, şəhərin xarici görünüşü, əhalisi haqqında maraqlı məlumatlar verilir. Mənbə Naxçıvanın İrəvan quberniyasının şəhəri olduğunu və Araz cayından 8 verst kənarda yerləşdiyini göstərir. Burada göstərilir ki, Naxçıvan şəhərinin tam mərkəzindən keçən caydan cəkilən arx vasitəsilə şəhərin bütün zəmiləri, bağları, bostanları suvarılırdı. Naxçıvançay bütün uzunluğu boyu ətrafında yaşayan sakinlər tərəfindən istifadə olunur. Çay yayda - dəhşətli istilərdə o dərəcədə quruyur ki, balaca bir bulağa cevrilir. Bu cür su catışmazlığı zamanı şəhərdə yaşanan həyəcan insanların suya olan ümumi tələbatından doğur. Rus müəllifi K.Nikitin suyu bölüşdürmək üçün səlahiyyətləri olan mirab və cuvarlardan bəhs edərək yazırdı: Şəhər boyu mövcud suyu bölüşdürmək və paylaşdırmaq üçün onlara bütün səlahiyyətlər verilmişdir. Çox vaxt müştərilərlə mirablar arasında dava düşür və haray-həşir qopur. Bu cür xoşagəlməz hallar suyu öz bağlarına, bostanlarına və təsərrüfatlarına aparmaq istəyən şəxslərlə adi işçilər arasında da olur. Şəhər əhalisinin icməli su ilə təhcizatı haqqındakı məsələ maraq doğurur. Mənbədən aydın olur ki, Naxçıvan qəza məktəbinin nəzarətcisi olan bir əylislinin 1860-cı ildə öz xərci hesabına çəkdirdiyi su boruları vasitəsilə şəhər əhalisinin icməli suya olan tələbatı ödənilirmiş. İçməli su şəhərə suçular tərəfindən adi qaydada iki ulaq vasitəsilə daşınırdı. Hər ulaq dörd ədəd küplə təhciz olunur. Həmin dörd küpdə olan suyun ümumi qiyməti 4-5 qəpikdir. Şəhərin qərb və cənub hissəsində yerləşən iki bulağın suyundan da istifadə olunur. Hər iki bulağın suyu təmiz və keyfiyyətlidir.

Mənbədən aydın olur ki, şəhərdə bütün evlər birmərtəbəlidir, onlar yastı damlarla örtülü olub, kücə tərəfdən gildən tikilmiş hündür divarlarla əhatə olunmuşdur. Küçələr dar, əyri və çirkli olduğundan şəhər hədsiz dərəcədə yaraşıqsız və kədərli görkəmə malikdir. Şəhərdəki bütün əyri küçələri dolansan da boz-sarı divarlardan başqa heç nəyə rast gələ bilməzsən. Naxçıvanda memarlıq baxımından çox sadə görünüşü olan dörd məscid var və onlar Asiya üslubunda tikilmişlər.

K.A.Nikitinin Naxçıvan şəhərində yaşayan əhalini cinsinə, tərkibinə, dininə və sənətinə görə tərtib etdiyi cədvəl diqqəti cəlb edir. Həmin cədvəldən məlum olur ki, bu dövrdə Naxçıvanda 6877 nəfər nəfər yaşayırmış. Onlardan 3720 nəfər kişi cinsli, 3157 nəfər isə qadın cinsli idi. Lakin mənbədə verilən rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Çünki rus müəllifinin tərtib etdiyi cədvəldə Naxçıvan şəhərində yaşayan əhali belə qruplaşdırılmışdır: hərbçilər-204 nəfər, məmurlar-77, tacirlər-360nəfər, sənətkarlar-120, torpaq sahəsi olanlar və fəhlələr-2953 nəfər. Əgər 409 nəfər məmuru və 198 nəfər dini rütbəlini 7177-yə əlavə etsək, onda Naxçıvan şəhərində yaşayan əhalinin sayı 8000 nəfər olar. Digər rus müəllifi İ.Şopen Naxçıvan şəhərində 5470 nəfər əhali (kişi-2871, qadın-2599 nəfər) yaşadığını yazır. Cədvəldən o da məlum olur ki, Naxcıvan şəhərində yaşayan əhalinin 4697 nəfərini və ya bütün əhalinin 2/3 hissəsini müsəlmanlar (tatarlar) təşkil edirmiş. Fikrimizcə, bu rəqəmləri reallıq kimi qəbul etmək, onlara inan-

maq düzgün olmazdı. Bunun da əsas səbəbi digər rus miəllifləri kimi Naxçıvan şəhər məktəbinin inspektoru Nikitinin erməni və ermənipərəst müəlliflərdən aldığı material və məlumatlardan istifadə etməsi olmuşdur. Məqalədə rast gəldiyimiz bu cür hallar, xüsusilə əhalinin sayı və tərkibi haqqında verilən yanlış fikirlər məqalənin elmi əhəmiyyətini azaldır. Erməni mənşəli tərcüməcilərin verdikləri məlumat və materiallar bütün tədqiqatlarda tənqid süzgəcindən keçirilməklə, dəqiq və hərtərəfli araşdırılmalıdır.

K.A.Nikitinin «Naxçıvan şəhəri və Naxçıvan qəzası» adlı məqaləsində XIX əsrin sonlarında Naxçıvan şəhərində istifadə edilən çəki (dolya, nuxud, misqal, bisti, çərək, batman, xarvar və s.), ölçü (mşkan, ponza, siya, çərək, batman) və uzunluq vahidləri (qrek, siya, ağac və s.) haqqında ətraflı məlumat verilir. Həmin çəki, ölçü və uzunluq vahidlərinin müasir dövrdə maraq doğurduğunu nəzərə alıb, onların bir neçəsinin miqdarını göstərməyi məqsədəuyğun hesab edirik. Nuxud=3,698 dolyaya (dolya- 44 milliqrama bərabər rus çəki ölçüsü), misqal=28 nuxuda, stil =50 misqala və ya 1400 nuxuda, bisti=800 misqala və ya 1400 nuxuda, çərək=4 bistiyə, batman=4 çərəyə, xarvar=25 batmana bərabər idi.

Məqalənin 19-cu səhifəsindən başlayaraq Naxçıvan qəzasının sərhədləri, mövqeyi, ərazisi, su mənbələri və suvarma sistemi, əhalisi, onun məşğuliyyəti, sənayesi, mineral suları, duz sənayesi və s. haqqında məlumat verilir. Qəzanın sərhədlərindən bəhs edən müəllif yazır ki, Naxçıvan qəzasının ərazisi: şimaldan Dərələyəz dağları onu qonşu Şərur-Dərələyəz qəzasından ayırır. Şərqdə qəzanı Zəngəzur qəzasından ayıran Qarabağ dağları, cənub və cənub-qərbdə İran sərhədi ilə axan Araz çayı, şimal-qərbdə Şərur düzənliyinin cənub hissəsi ilə sərhədlənmişdir. Naxçıvan qəzası bütün Qafqazda ən məhsuldar və bərəkətli torpaqları olan qəzalardan biridir. Lakin su catışmazlığı hər yerdə hiss olunur. Müəllif yazır ki, həqiqətən də Şaxtaxtıdan Abbasabada(50 verstlik məsafə) və Naxçıvan çaydan Culfaya qədər olan ərazidə nə bir çay, nə də bir kanal vardır. Su təminatı baxımından Naxçıvan qəzasının ərazisindən 3 kicik cay axardı: bunlar Naxçıvan çay, Əlincə çay və Gilan çaydır. Qəzanın ən böyük çayı isə Araz çayıdır. Nüvədi, Ordubadçay və Vənənd çaylarının da adlarını çəkən müəllif onları o qədər də əhəmiyyətli hesab etmir. Şahtaxtı və Qarğalıq (mənbədə Karaqlu kimi göstərilib) arasındakı 10 verstlik bir ərazidə hər iki tərəfdən Araza kiçik dağ çayları tökülür. Qarğalıq postundan 2verst aşağıda Araz çayı üzərində salınmış iki körpü diqqəti cəlb edir. Qıvraq kəndindən cənuba tərəf Araz cayı boyunca Naxçıvana qədər olan ərazi münbit olmayan və bitki bitməyən yerlərdir. Məskunlaşmamış və bərəkətsiz olan bu yerlər kədər və təəssüf hissi doğursa da, Naxçıvan duz mədənləri burada yerləşir.

Mənbədə qəzada olan kecid - gömrük məntəqələri və ticarət haqqındakı məlumatlar maraq doğurur. 22-ci səhifədə göstərilir ki, qəzada Araz çayının axını Şərur gömrük-karantin sərhəd xidmətinin yerləşdiyi Şahtaxtı kəndindən başlayır. Maku, Xoy və Səlmasdan gələn İran malları karvan karvan yolu ilə bu məntəqədən keçirilir. Bu yol ilə ildə 200.000 manat (rubl) dəyərində mal gətirilir. Burada həm də Arazı kecmək üçün bərə kecidi qurulmuşdu. Culfa keçid məntəqəsindən bəhs edən müəllif yazır ki, Arazın şimalında yerləşən Culfa kecid məntəqəsi İrandan Qafqaza gedən əsas karvan yollarının üzərindədir. İndi bu yolla ildə tərkibində 100-dək dəvə, at olan 80-90 karvan gedir. Bu karvanlara yüklənmiş iran və türk malları 1.600.000 manat dəyərindədir. Bu ticarət Naxcıvan gömrüyü ilə kecirilir. K.A.Nikitin Naxçıvan qəzasında əhalinin məskunlaşdığı ərazini üç hissəyə bölür; birinci hissə Naxçıvan şəhərinin mərkəzindən Naxçıvançayın yuxarı axarına qədər idi. İkinci hissə Culfadan başlayaraq Ordubad da daxil olmaqla, Mehri istiqamətinə qədər uzanırdı. Nəhayət, əhalinin ən az məskunlaşdığı sonuncu hissə Əlincəçayın ətrafında idi. Naxçıvan düzənliyinin qalan hissəsi susuz, meşəsiz və bitki bitməyən ərazilərdən ibarət idi.

Qəzada 36 min nəfər yaşayırdı. Başqa sözlə, hər bir kv. verstə 8 nəfər düşürdü. Məskunlaşmış ərazi 210 kv. verst və ya bütün ərazinin iyirmidən bir (1/20) hissəsini təşkil edirdi. Əhalinin əsas məşğuliyyət sahələri taxılçılq, bağçılıq, bostançılıq, arıcılıq və ipəkçilikdir. Qəzada əkinə yararlı torpaqlar 53.000 desyatindir. Kənd təsərrüfatında əsas sahə bağçılıqdır. Aşağıdakı meyvə bağları vardır: ərik, alça, üzüm bağları. Naxçıvan qəzasında üzüm bağları daha geniş sahələri əhatə edir. Qəzada çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzümü olsun. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm vardır. Ağ, qara, qırmızı, çəhrayı, yaşıl, göy, açıq sarı, sarı rəngli üzümlər bu qəbildəndir. Müxtəlifliyinə görə bu növ üzümlər yerli adlarla adlandırılır. Məs: zeyni, xəlili, kişmişi, haca-baş, əsgəri, səbzi, xərci, misqalı, şir-şiri, təbərzə, kərim-kəndi, qulama və s. Bunların içərisində şirniyyat və ya çərəz üçün ən yaxşısı əsgəri üzümüdür, haça-baş adlı üzüm növünü isə qışadək saxlamaq mümkündür. Naxçıvan üzümündən hazırlanmış şərab dad və keyfiyyətinə görə kaxetiyadakından da üstündür. Naxçıvan şərabı hətta xarici xeres və madar şərablarından da tərifəlayiqdir.

Müəllif göstərir ki, son zamanlar tütün istehsalı da artırıldı: hazırda onun bir pudu 10-30 manatdır. Qəzada arıçılıq və balıqçılıq o qədər də mühüm əhəmiyyət kəsb etmir. Araz çayında sazan və som, dağ caylarında isə kiçik, ancaq dadlı forel balıqları olur.

İndi burada barama qurdlarının xəstəliyinə görə ipəkçilik tənəzzül dövrünü keçirir. Qəzada Amerika pambığından da üstün olan pambıqçılıq inkişaf etdirilir.

Sənayenin əhatə dairəsi o qədər də geniş deyil. Evdar qadınlar yun və həsir məmulatı, xalçalar, kəndirlər toxumaqla məşğul olurdular. Qəzada primitiv texnikaya əsaslanan sənaye sahələri çox məhdud şəkildə idi. Aşağıdakı rəqəmlər əhalinin yaşayış və güzəranından xəbər verir: qəzada 4min at, 20 min iribuynuzlu, 33 min qoyun və 11min keçi var idi.

Qəza minerallar cəhətdən çox zəngin idi. Naxçıvan şəhəri yaxınlığında yüksək keyfiyyətli gips hasil olunurdu. Qızılburunda və Culfa yaxınlığında qırmızı qum və kiçik daşlar çıxarılırdı. Biçənək kəndinin yaxınlığında kükürd zavodu var idi. Qəzanın bir çox yerində dəmir və mis filizinə, Dərələyəz dağlarında isə qurğuşun və gümüş filizinə rast gəlmək mümkündür. Culfa yaxınlığında hasil olunan zəy və mərgümüşdən qarışdırılaraq alınan sarı rəngli maddə (nura yağı) saçların və tüklərin müalicəsində əlverişli hesab edilirdi.

Qəza minerallar cəhətdən də varlıdır. Sirab kəndində çoxsaylı karbon tərkibli mineral sular vardır. Naxçıvandan 7 verst kənarda dağ çaylarının axdığı təpədə «Naxşı-Nərgiz» adlı mineral su bulaqlarına Biçənək kəndi (Gömür kəndi ilə Gecəzurun arzusunda) yaxınlığında daha çox rast gəlinir. Tərkibində çoxlu dəmir olan bu mineral sular Şuşa yaxınlığında çıxan suları xatırladır. Bar-bərəkəti ilə seçilən Naxçıvan qəzasının rəqibi müxtəlif növlü mineral sulara görə qonşu Dərələyəz qəzasıdır. Burada həmçinin digər minerallara-müxtəlif rəngli gilə (onun bir növündən sabun əvəzinə istifadə edilirdi) obsidiana, mərmərə, saxsı gilə, zəy, dağ daşlarının müxtəlif formalaına rast gəlinir.

Məqalənin son səhifələrində verilmiş Naxçıvan duz sənayesi, Culfa, tumbulluların xarakteri adlı yarımbaşlıq diqqəti cəlb edir. Burada yazılır ki, İrəvandan Naxçıvana gedən yolda təpələr, yüksəkliklər və bitki örtüyündən məhrum olan bir ərazi ilə qarşılaşırıq. Naxçıvana 12-15 verst qalmış yolun sol tərəfində Naxçıvan duz sənayesi adlandırılan daş duz yataqları vardır. Su olmadığına görə bu ərazidə heç bir sakin və kənd yoxdur. Məmurlar, fəhlələr, duzçıxaranlar torpaq qazmalarda yerləşirlər. Suyu Naxçıvandan 12 verst kənar olan bir ərazidən gətirirlər. K.Nikitin duz hissələrinin və parçalarının ən çox gilli dağların tərkibində olduğunu və duz qatlarının qalınlığı və kipliyinin

heç də hər yerdə eyni olmadığını qeyd edir. Müəllif yazır ki, yolun lap kənarında yerləşən birinci mağaranın yarısı dağıldığı üçün o yararsızdır. Dağların mərkəzində yerləşən və indi duz çıxarılan ikinci mağara isə çox dərində olduğu üçün orada işıqsız işləmək mümkün deyil. Heç bir işçidən duzun müəyyən edilmiş həcmdə və miqdarda çıxarılması tələb edilmir.

Duz mədənində çalışan hər bir işçi gün ərzində 40 pud duz çıxarır. Çıxarılmış daş duzun hər pudu üçün 1,5 qəpik, narın duzun hər pudu üçün 0,5 qəpik ödənilirdi. Məlumatdan aydın olur ki, Naxçıvanda hər il 200.000 pud duz (120.000 pud daş duz, 80.000 pud narın duz) çıxarılırmış. Çıxarıldığı yerdə bir pud duz 10 qəpiyə satılırdısa, Naxçıvandan kənarda 18-25 qəpik, Şuşada isə 60-75 qəpik idi. Çıxarılmış duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, Ordubada, Yenibəyazidə, Şuşaya, İrana və b. yerlərə göndərilirdi.

Culfanın tarixindən bəhs edən müəllif yazır ki, Culfa-Tarudağla Araz çayı arasındakı ensiz zolaqda, Əlincəçayın qarşısındakı ərazidə yerləşir. Hələ lap qədimdən Araz çayı üzərindən salınmış iki və ya üç körpünün qalıqları hələ də qalmaqdadır; İrandan Zaqafqaziyaya və əksinə aparılan karvan malları bu körpüdən keçirmişlər. Bu körpülərdən nə vaxtsa roma qoşunları da keçib getmişlər.

Körpülər dağıldıqdan sonra burada yaranmış əlverişli mövqedə- çayın hər iki tərəfində hələ də qalıqları qalan karvansara tikilmişdir. Culfa şəhəri şimal tərəfdən qala və etibarlı qapılarla müdafiə olunurdu.

Hələ 1600-cü ildə Culfada 50.000-dən çox adam yaşayırdı. 1605-ci ildə Şah Abbasın qoşunları tərəfindən şəhər qarət olunmuş, Culfadan 12.000 ailə İrana köçürülərək İsfahan yaxınlığında yerləşdirildi. Yaxın zamanlaradək burada yaşayan 10-12 ailə qeyri-sağlam mühitə və əlverişsiz hava şəraitinə görə 2-3 verst kənara köçüb orada məskunlaşmışdı.

Tumbullular. Mənbədə Tumbul kəndi və onun əhalisinin özünəməxsus cəhətləri belə təsvir edilir: Naxçıvanın 5, Arazın isə 6 verstliyində Tumbul kəndi yerləşir. Bu kəndin sakinləri tumbullular adı ilə məşhurdular. Buranın əhalisi digərlərindən köklü şəkildə fərqlənir. Əsl tumbullu hündürboy və arıqsifətlidir. Verilən mənbədə təsvir olunan Tumbul kəndi və onun əhalisinin məişət təsvirinin açıqlanması onu göstərir ki, bu ərazidə yaşayan əhali sırf müsəlman türkləridir. Bir məsələni qeyd etməyi lazım bilirik ki, Tumbul kəndi və tumbullular məsələsi ilə bağlı mətbuatda - «Təhsil problemləri» (№19-20, 290- 291, 1-10 aprel 2007-ci il) qəzetində yazı nəşr etdirmişik.

K.A.Nikitinin adı gedən məqaləsi haqqında akademik İ. Həbibbəylinin məqalələrində (2, s.74-75, 77, 3, s.22-24, 4, s.610-611) çox maraqlı və zəngin məlumatlar vardır.

Sonda mənbədə verilən bir neçə yanlış məlumata və təhriflərə tənqidi yanaşmağı məqsədəuyğun hesab edirik. Onlardan bir neçəsini sadalamaqla fikrimizi təsdiq edə bilərik. Mənbədə 1673-cü il Nadir şahın dövrünə aid olan tarix kimi göstərilir. Halbuki, Nadir şah 1736-1747-ci illərdə hakimiyyətdə olmuşdur. Göstərilən fikir bir neçə tarixi ədəbiyyatda və elmi tədqiqat əsərlərində də təsdiqlənir. Sonra müəllif Naxçıvan şəhərindəki məscidin inşasının XIII əsrə-guya Qızıl Arslanın dövrünə düşdüyünü göstərir. Bu tarix düzgün verilmir. Çünki tarixdən məlumdur ki, Qızıl Arslan 1186-1189-cu illərdə hakimiyyətdə olmuşdur. Bu tarix N.Vəlixanlının əsərlərində də öz təsdiqini tapır. Digər bir tənqidimiz K.Nikitinin Naxçıvan şəhərinin 1380-ci ildə Teymurun oğlu Miranşahın hakimiyyəti altına keçməsi fikri ilə bağlıdır. Teymurilərin Azərbaycana ilk yürüşləri XIV əsrin 80-ci illərinin sonunda-1386-cı ildə başladığı halda, Miranşahın mənbədə göstərilən tarixdə (1380-ci il) Naxçıvan şəhərini tutması təəccüblü görünür. Bizim fikrimiz tarixçi-alim V. Piriyevin Naxçıvan tarixinə aid olan əsər və məqalələrində öz təsdiqini tapmışdır.

Beləliklə, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna edilməklə K.A.Nikitinin bu məqaləsi özündə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin tarixinə dair zəngin məlumatlar əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbədir.

### ƏDƏBİYYAT

1.Никитин К. Город Нахичевань и Нахичеванский уездь. Сборник материалов для местностей и племен Кавказа. Тифлис: 1882, 142 с.
2.Həbibbəyli İ. Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s.73-91.
3.Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı –beş min il / Nax. MR-nin yaranması: tarix və müasirlik. Naxçıvan, 2007, s.20- 27.
4.Həbibbəyli İ. Gəmiqaya dünyası: Nuh peyğəmbər, Naxçıvan və Gəmiqaya / Ədəbi – tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, s.602-611.

**ЯШАР РАГИМОВ**

### СТАТЬЯ К.А.НИКИТИНА «ГОРОД НАХИЧЕВАНЬ И НАХИЧЕВАНСКИЙ УЕЗДЬ» - ИСТОЧНИК ИСТОРИИ НАХЧЫВАНА

Многие проблемы Нахчыванской истории нашли свое отражение в произведениях русских авторов. Одним из письменных источников об истории Нахчывана XIX века является статья К.А.Никитина «Город Нахичевань и Нахичеванский уездь» -источник истории Нахчывана. В статье были раскрыты вопросы связанные с нашей историей, а отдельные части и разделы книги были исследованы. Обращается внимание на существование в источнике не имеющих научных оснований ложных исторических фактов. Несмотря на определенные ошибки и недостатки, статья К.А.Никитина «Город Нахичевань и Нахичеванский уездь» считается очень весомым и уважаемым источником Нахчыванской истории XIX века.

**YASHAR RAHIMOV**

### K.A.NIKITIN'S BOOK OF "THT NAKHCHIVAH AH CITY AND THE NAKHCHIVAH AN PROVIHCE" AS SOURCE OF THE HISTORY OF HAKHCHIVAN REGION

Some problems of the Nakhchivan history have been reflected in the works of the Russian autors. The one of written sources which that, concerming to the $19^{th}$ century Nakhchivan history is K.A.Nikitin's book of "The Nakhchivan city and the Nakhchivan province". In this article was learnt the problems which connected with our history and it has researched the part and chapters of the book. It has been bring to the attention the cases of mistaken historical fakts which that, it doesn't scientific base. K.A.Nikitin's book of "The Nakhchivan city and the Nakhchivan province" is reliable and heavy source for the $19^{th}$ century Nakhchivan history, but there are some distortions and insufficiencies in this book.

***Rəyçilər: AMEA-nın həqiqi üzvü, t.e.d.İ.M.Hacıyev, t.e.n.M.Y.Məmmədov.***
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 22 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***